

Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# MƏQAMLAR... YAŞAMLAR...

## Hər anın duası da, mənası da sevgisi

**Xalqın yaddaşında, leksikonunda, elə həyatının özündə də qəribə məqamlar və qəribə deyimlər var. Çox maraqlıdır ki, bu qəribə deyimlərin, məqamların bəzən yeri görünür. Necə deyərlər, adamın burnunun ucu göynəyir onlar üçün. Elə ki, şahidi oldun, eşitdin, onda içinə bir sərinlik dolur, rahatlanırsan. Sanki pörşələnən ürəyinə su səpilir...**

Bax, bu mənada zaman-zaman işlədilən "hər ziyanda bir xeyir var" və yaxud "hər gecənin bir səhəri var" kimi fikirlər yuxun ərşə çəkiləndə, yerinə qor dolanda, ağrılar sinənə çöküb nəfəs almağa imkan verməyəndə daha çox yerinə düşür. Ona görə də mən arxada qalan gecənin ağrı köynəyini əynimdən çıxarmaq üçün məhz dediyim məqamalara söykənməli oluram. Deməli, ağrılar içində açdığım səhər tibbin qanunlarına, tələblərinə tabe olmayan təyziqin əlindən yenicə yaxamı qurtarıb, yenicə özümə gəlmək istəyirdim ki, telefonuma zəng gəldi. Adətən sübh tezdən gələn zənglər adamda narahatçılıq yaradır. Amma mən adət etdiyim üçün tələsmədən telefonu açdım. Səs həm doğma, həm də yaxından gəlirdi. Elə birbaşa da səs sahibi dedi:

- Əbülfət, nətərsən? Mənəm ey, Zeynəbəm, yəqin tanıdın. Bilirsən ki, mən od-alovam da, mənim üçün zaman anlayışı yoxdu. Gələndə təyyarə biletimi ikibaşlı almışam. Bu gün qayıdırma Moskvaya. Ona görə dedim heç olmasa səsini eşidim. Görüm necəsən? Uşaqlarda nə var, nə yox...

Bu, bizim qrupun ən cılız, amma ən dəcəl Zeynəbi idi. Bu çəlimsiz qız dövlət universitetində birgə oxuduğumuz illərdə hamıya elə doğmalaşmışdı ki, hər kəs onu bacı bilirdi və hər kəs də onun nazı ilə oynayırdı. Uzun illərdi ki, Moskvada yaşayır. Hər gəlişində də mütləq tələbə yoldaşlarını arayıb-axtarır. Təşəbbüs göstərir ki, bir yerə yığışaq. Amma dediyinə görə, bu dəfəki səfəri çox qısamüddətli olub. Ancaq hər kəslə telefonla danışıb. Və söz verib ki, Novruz bayramında gəlib hamımızı bir yerə yığacaq...

Mən bu məqamı yazıma ona görə əlavə edirəm ki, gecənin ağrı-acısını səhərin bu cür xoş ovqatıyla əritmək adama rahatlıq gətirir və özün də bilmədən xatirələrə qoşulub tələbəlik illərinə çıxıb gedirsən. O illərə ki, orda hər şey sənə doğma, hər şey sənə ümidverici və ən vacibi olduğu kimi görünürdü. Qurduğun xəyallar da, gördüyün yuxular da, hətta arzuların özü də könül oxşayırdı. Adamı yaşamağa, sabahlara üz tutmağa həvəsləndirirdi. İndi isə...

Deməli, yaradılan ovqat istər-istəməz adamın işinə də, həyatına da təsir edir. Onu elə kökləyir ki, elə bil Möhlət Müslümov tarını kökləyir. Və indi barmaqlar bir "Segah" başlayacaq. Sən də o "Segah"a qoşulub öz dünyanı gəzib dolaşacaqsan. Onda görəcəksən ki:

**Qopmuşam, külək əlində**
**Yarpağam, yarpğam, yarpaq...**
**Qoyma ayaqaltı olum -**
**Məni bağrına sıx yar, bax!**

**Gör necə ovulur ruhum**
**Hər ögey baxış altında...**
**Döyülmüş uşaq tək durdum -**
**Qəm adlı yağış altında...**

**Əlimi açdığım Allah,**
**Dilimin döndüyü adın...**
**Bu sevgini yaşamağa -**
**Məni sən doğmusan, Qadın!**

**Anladıqca Biri, Səni**
**Çəkilir gözümdən tor, bax...**
**Sevgisiz buraxma məni -**
**Qucağın açıbdı torpaq...**

***

Mənim inancıma görə, heç nə təsadüfi deyil. İstər qarşılaşmaq, istər əlindəki nəyinsə düşüb sınması, istər yolu keçəndə səni maşının vurması və s.və ilaxır. Mən inanıram ki, hər şeyin kökündə bir səbəb var, bir cəzbetmə, bir cazibə qanunu var. Ona görə də kimsə mənə deyəndə ki, "müəllim, nə xoş təsadüf, görüşdük" mən nə onun dediyi "xoş" sözünə, nə də "təsadüf" sözünə önəm vermirəm. Birinci, mənimlə kiminsə görüşməsi mənə və yaxud ikinci tərəfə xoş ola bilər. Yəni burda hər kəs özü adından çıxış eləməlidir. İkincisi də biz əgər görüşmüşüksə, deməli, bu həyatımızın yazılı qanunlarından biridir. Və biz də yazılmış həyatımızı yaşayırıq. Nə qədər iddialı olsaq da, hələ kiminsə Tanrı yazdığının dəyişdiyini görməmişəm, eşitməmişəm. Ona görə də bəxt, tale deyilən bizim ruhumuzun, həm də cismimizin köynəyidir. Biz də onun içərisində yaşayırıq, gəzib dolanırıq. Bax, elə bu anın özündə də , bilgisayarla üzüzə dayandığım məqamda da, mən dediyim və iddiasını birmənalı qəbul etdiyim fikrin daşıyıcısıyam. Ən azından ona görə ki, bu yazı prosesində baş verən hər bir olay bu və ya digər formada mənimlə, iş prosesimlə bağlı idi. Deməli, bu, bir tale yazısıdır və hətta o yazının elə bir nöqtəsidir ki, o, adama yüklənəndə içindən sanki daş asılır, göyərməyən, qapqara bir daş. Çox şükür ki, o daşın səsini batıran gur, həzin, kövrək, necə deyərlər, bütün calarların toplusu olan bir səs hər an mənimlədir. Hətta:

**Səsin səhərə kimi**
**Mənimlə baş-başaydı...**
**O səs mənim ruhumu -**
**Ovutmağı bacardı...**

**Bir az layla biçimli,**
**Bir az "Segah" ovqatlı...**
**"Tərəkəmə" içimi -**
**Səsdən qopub oynatdı...**

**Bir az yay zümzüməsi**
**Bir az payız notları...**
**Səndə ilahi səsin -**
**Varmış bütün kodları...**

**Mən səsinə üz qoyub**
**Udmuşdum nəfəsimi...**
**Allahım, sən də qoru -**
**Mənim səs qəfəsimi!..**

Bu, əslində nə dua deyil, nə yalvarış. Bu, sadəcə olaraq hər an mənimlə baş-başa olan bir səsin özəlliklərini etiraf etməkdi, dilə gətirməkdi. Mən də bunu etməyə çalışıram. Və təbii ki, etirafı da özümün böyüklüyüm kimi yox, Allahımın önündə hər an diz çökməyə hazır bəndə kimi ifadə etməyə üstünlük verirəm. Axı, bütün bunların, o səsin də, sənin də, həyatımın da hər nöqtəsi, hər hüceyrəsi, hər anı Allahın mənə yazdığı taledir. Şükürlər olsun ki, o taleylə çıxdığım yol, yaşadığım həyat, yazdığım yazılar hələki bir-birindn qaçmayıb, bir-birini inkar etməyib. Necə varsa, elə də yaşanır. Yəni mənim yaşadıqlarım mənim göy üzündə ssenarisi yazılıb çəkilmiş həyatımın bəndələr arasındakı yayımıdı. Baxan, seyr edən, izləyən buna hansı qiyməti verirsə versin, mənim üçün çox da önəmli deyil.

Ən zəruri olan odur ki, bir tale yazısı yuxularda da, xəyallarda da, elə reallıqda da üst-üstədir və öz-özünü təsdiq edir. Zənnimcə, bundan gözəl heç nə ola bilməz.

***

Yazımın əvvəlində xalqın yaddaşına üz tutdum. Elə o yaddaşdan çıxış edərək bugünkü tale yazımın bir səhifəsinə diqqət yetirirəm. Əslində bu, diqqətdən daha çox həmin səhifəni su kimi içməkdir. Göz yaddaşına, ürəyə köçürməkdir. Deyə bilərsiniz ki, bunu niyə edirsən? Özün bildiyini yenidən tirajlamağın nə mənası var. Amma yox!..

Gəlin etiraf edək ki, təkrar etmək heç vaxt qüsur gətirmir. Söhbət burda öyrənmək məqsədli, yaşatmaq məqsədli təkrardan gedir, tutuquşu təkrarında yox. Bax, bu mənada mən göz yaddaşıma, ürəyimə köçürdüyüm həmin səhifə məhz Sənin adınla bağlıdır. Və mən də Sənin adınla bağlı olan mövcud və xəyali hər şeyə hər zaman həm biyət etmişəm, həm də ibadət.

İndi o dediyim duyğuların mən də yaratdığı assosiasiyanın özünü sanki güzgü də görürmüş kimi seyr edirəm. Hardasa, lap uzaqlarda ormanlar da var, çəmənlər də var, çiçəklər də var, lap elə yaxınlarda dibçəklər, xiyabanlar, parklar da var. Bu dediklərim olan yerdə mütləq arılar da, kəpənəklər də var. Hələ başqa böcəkləri demirəm. Və mən bir anlıq düşünürəm ki, arılar, kəpənəklər o çiçəklərlə necə bir-birinə sarmaşıb, necə bir-birinə sığınıb nəfəs alırlar. Təbiətşünaslar bəlkə mənimlə razılaşmadılar. Amma mən şair xəyalımın gücünə söykənib deyirəm ki, arılar, kəpənəklər çiçəklərlə təmasda olanda onların ürəkləri bir vurur. Onlar həmin anda eyni cür nəfəs alıb, eyni halı yaşayırlar. Axı bu onların Vüsal anıdır!..

Deyəsən bir az poetik fikirlər, duyğular məni qanadlandırdı. Amma buna peşiman deyiləm. Ən azından ona görə ki:

**Hər çiçəyin,**
**hər gülün**
**tumurcuq vaxtı,**
**sevgi taxtı**
**və bir də kəpənəyə,**
**arıya**
**qovuşmaq**
**vaxtı var**
**bu dünyada...**
**Hər bəndə,**
**hər inanc sahibi**
**Allahına**
**üz tutub,**
**əl açıb,**
**diz çökür,**
**ürəyini**
**ortaya tökür**
**dua zamanı,**
**ibadət məqamları...**

**Həm çiçəklər,**
**həm güllər,**
**həm arılar,**
**həm kəpənəklər,**
**deməli,**
**həm də bəndələr**
**öz baxtını,**
**öz taxtını şərəfləndirər**
**sevgisiylə,**
**duasıyla....**
**Və mən**
**belə anlarda**
**özümü**
**kəpənək də bilirəm,**
**arı da,**
**bəndə də...**
**Çünki məndə**
**Tanrıya,**
**onun verdiyi sevgiyə,**
**yəni Sənə -**
**qovuşmaq**
**istəyi var,**
**tək qalmış**
**bir Bozqurd**
**ulamasıyla...**

Hə, mən hərdən yolumu ibadətgahlardan, müqəddəs yerlərdən salıram. Məqsədim alnımı möhürə vurmaq deyil, sadəcə içimdə olan Allah sevgisini həmin o ocaqda Tanrı dərgahına bir az da yaxınlaşdırmaq istəyirəm. Bilmirəm, bu alınır, yoxsa alınmır... Lakin hansı ölkədə olmağımdan asılı olmayaraq, məbədə də gedirəm, kilsəyə də, məscidə də. Bunu hərəniz bir cürə yozacaqsınız. Buna şübhəm yoxdur! Amma bilin ki, mən Şeyx Sənan kimi çıxdığım bu yolda bir Allahı tanıyırım, bir də sevgi dinini. İbadətim də Allaha və sevgiyədir! Kim mənimlə həmfikirdisə, ürəyində tək bir kəlmə desin:

- Amin! Allah qəbul etsin!

... Deməli, yazımın bu yerində millət vəkili, yazıçı-publisist Aqil Abbas otağa daxil oldu. Təbii ki, bizdə həm böyüyə, həm rəhbərə sevgi, sayğı milli dəyərdir. Və yaşda məndən bir neçə bayram böyük olan dəyərli qələm dostum Faiq Qismətoğlu hamıdan öncə yerindən qalxdı. Deyərsiniz bunun yazıya nə dəxli var?! Tələsməyin, mən indi sizə izah edim:

**- Birinci, ən böyük Allahdır! Sonra ağsaqqal! Və nəhayət, ən böyük Sevgidir - Allaha və ağsaqqala! Fərdi Sevgi isə hər kəsin öz sevdiyinədir! Deməli, bu fikirlərin də yazıma dəxli var idi. Və nəhayət, mənim hər an, hər dəqiqə təkrarladığım sevgi... Onun da ünvanı Sənsən...**